

# "Muzeylər və Nizami irsi"

## Virtual beynəlxalq proqrama yekun vurulub



Cari ilin 18-26 may tarixlərini əhatə edən "Məktəblilər üçün muzey həftəsi" layihəsi çərçivəsində "Muzeylər və Nizami irsi" adlı virtual beynəlxalq proqrama yekun vurulub. Proqram Təhsil, Mədəniyyət nazirlikləri, Azərbaycan Milli Elmlər Akademiyası və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin əməkdaşlığı və Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin təşkilatçılığı ilə icra edilib.

"Nizami ili" ilə əlaqədar həyata keçirilən "Muzeylər və Nizami irsi" adlı virtual beynəlxalq proqramın məqsədi məktəbliləri Nizami irsi ilə tanış etmək, onlarda klassik irsə məhəbbət hissi aşılamaq, həmçinin onların asudə vaxtlarını səmərəli təşkil etmək olub.

Proqram çərçivəsində Azərbaycan, həmçinin Rusiya və ABŞ-ın aparıcı muzeylərinə onlayn təqdimat və virtual ekskursiyalar təşkil edilib.

Layihə çərçivəsində muzey işçiləri ilə birgə Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin gənc bələdçiləri tərəfindən muzeylərə onlayn ekskursiyalar təşkil olunub. Virtual eksursiyalara məktəblilər və Bakı şəhəri ilə yanaşı, respublikanın digər regionlarında fəaliyyət göstərən uşaq-gənclər inkişaf mərkəzlərinin dərnək üzvləri qoşulub.

"Muzeylər və Nizami irsi" "Muzey həftəsi" pandemiya ilə əlaqədar olaraq onlayn formatda həyata keçirilib.

Qeyd edək ki, Təhsil Nazirliyi Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi və YUNESKO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının birgə təşəbbüsü ilə keçirilən "Məktəblilər üçün muzey həftəsi" 2015-ci ildən ənənəvi olaraq keçirilir və layihə əsasında yeni interaktiv təhsil proqramı yaradılıb. Proqram çərçivəsində hər il mayın 18-dən 26-dək bir həftə ərzində Bakı şəhəri və regionlarda fəaliyyət göstərən muzeyləri əhatə etməklə "Muzey həftəsi" keçirilir. Beş il ərzində maarifləndirici "Muzeylər həftəsi" proqramı çərçivəsində Bakı şəhəri və regionlarda fəaliyyət göstərən muzeylərə 75000-ə yaxın şagirdin ekskursiyası təşkil edilib.

Bu il onlayn platformada keçirilən "Muzeylər və Nizami irsi" proqramına 700-dən çox məktəbli qoşulub və 20000-ə yaxın baxış sayı müşahidə edilib.